


Göyərçin

ISSN-0207-4710







# 12 Göyərçin 1999









Göyərçin



# MƏHƏMMƏD PEYĞƏMBƏRİN KƏLAMLARINDAN

Dinin əsası pis əməllərdən çəkindirməkdir.

***

Qocalara yaşlarına görə hörmət edənlərə Allah ömürlərini artırmaqla əcr verər.

***

Qocaya hörmət - Allaha hörmət deməkdir.

***

Ən yaxşı sədəqə odur ki, sağ əlin verdiyini sol əl bilməsin.

***

Sədəqə və ehsan birinci növbədə gərək ehtiyacı olan qohum-əqrəbaya verilsin.

***

Heyvana qarşı kin saxlayıb qəzəblənmək nadanlıqdır.

***

Zəif heyvanlarla davranış zamanı Allahdan qorxun.

*Rafiq YUSİFOĞLU*

## AZƏRBAYCAN ƏSGƏRİ

**Azərbaycan əsgəri
Canını əsirgəməz.
Vətən üçün son gilə
Qanını əsirgəməz.**

**Qəhrəmanlıq göstərib
Düşməni mat qoyar o.
Vətənə xor baxanın
Gözlərini oyar o.**

**Döyüşdə şirə dönər,
Sel kükrəyər qanında.
Ədəb-ərkan gözləyər
Ağsaqqalın yanında.**

**Ona ruh verən, eli
Qorumaq həvəsidi.
Babəkin, Koroğlunun,
Həzinin nəvəsidi.**

**Vətən çörəyi ilə
Boya-başa yetibdir.
Bığ yerində elə bil
Bənövşələr bitibdir.**



**Təzəcə süvar olub
O, zirehli bir ata.
Misri qılınc əlində
Çevrilib avtomata.**

**Qəlbinə nur gətirən
Tardı, kamandı, sazdı.
Onun damarlarında
Axan Kürdü, Arazdı.**

**Qeyrətini görəndə
Yağı qorxar, ah çəkər.
O, dağlara sığınıb,
Düşmənlərə dağ çəkər.**

**Azərbaycan əsgəri
Bu torpağı güldürər.
Bir əlində avtomat,
Bir əliylə gül dərər...**

***Əziz balalar, Vətənin əsgəri olmaqdan şərəfli heç nə ola bilməz. Vətən təkcə dağı, dərəsi, təbiəti ilə yox, insanları ilə gözəldir. Elə buna görə də gələcək döyüşlərə indidən hazırlaşın, Vətənin adına layiq oğullar, qızlar kimi böyüyün. Vətənin ümidi sizədir. Vətənin gələcək taleyi sizin əlinizdədir.***

*TÜRK DÜNYASININ BÖYÜK OĞULLARI*

## ƏLİ QUŞÇU

Tanınmış türk astronomu Əli Quşçunun doğulduğu yer və il mə'lum deyil. Onun atası Mehmet Uluğ bəyin Şahin başçısı olduğu üçün "Quşçu" ləqəbini almışdır.

İlk təhsilini Səmərqənddə almış, Uluğ bəydən riyaziyyat və astronomiyanı öyrənmiş, Səmərqənd rəsədxanasının müdiri tə'yin olunmuşdur.

Uluğ bəyin oğlu Əbdüllətif Əli Quşçunun ölümü haqqında fərman verir. Elə buna görə də görkəmli alim Səmərqənddən qaçmalı olur. O, Təbrizdə Uzun Həsən tərəfindən yaxşı qəbul edilir. Ağqoyunlularla osmanlılar arasında ziddiyyət yarandıqda elçi kimi Fateh Mehmetin yanına göndərilir. Elmə, mədəniyyətə hörmət edən Fateh II Mehmet onu çox yaxşı qarşılayır, təhsilini davam etdirməsinə şərait yaradır. Əli Quşçu bir müddətdən sonra İstanbuldakı Ayasofiya mədrəsəsinə müdir tə'yin edilir.

